# Mübarək Ramazan ayı başlanır

May ayının 27-də müsəlmanların fərz ibadətlərindən olan orucluq ayı—Ramazan ayı başlayır.

Islamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və müqəddəs ay hesab edilir. Onu məcazi şəkildə "on bir ayın sultanı" da adlandırırlar, çünki bu ayın gecələrinin birində müqəddəs kitabımız olan Qurani-Kərim nazil olmuşdur. Həmin gecəyə "qədir" və ya "ehya" gecəsi deyilir. Qədir gecəsinin konkret olaraq hansı günə təsadüf edildiyi bilinmir. Bununla bağlı müxtəlif rəvayətlər vardır. Amma ümumi fikir belədir ki, qədir gecəsi Ramazan ayının son on gecəsindən biridir, həm də tək günün gecəsidir. Islamşünasların fikrincə, bu gecə Ramazan ayının 19, 21, 23, 25, 27-sinə təsadüf edir.

Qeyd edək ki, müsəlmanlar ən mühüm ibadətlərini, o cümlədən orucu və həcci, Fitr və Qurban bayramlarını hicri-qəməri təqvimə əsasən yerinə yetirirlər. Ayın isə Günəşə və Yerə nisbətən vəziyyətindən asılı olaraq müxtəlif səfhələri (ayın görünən xarici tərəflərindən hər biri) olur. Bu səfhələrdən biri də hilaldır, yəni təzə aydır. Iki təzə ay arasında keçən müddət 29,5 orta Günəş gününə bərabərdir ki, bu da bir ay edir. Qədim ərəblər bunu vaxt vahidi kimi götürərək bəzi ayları 29, bəzilərini isə 30 gün qəbul etmişlər.

Orucluğun mahiyyəti, müsəlmanlara nə üçün fərz olması barədə qəzetimizin gələn nömrələrindən birində geniş məlumat verəcəyik.

**«Qəbələ».**

# «Qəbələ» U-11 Liqasının çempionu olmuşdur

AFFA-nın təşkilatçılığı ilə keçirilən U-11 Liqasında 2016-2017-ci illər mövsümünə yekun vurulmuşdur. Yarışın son günündə final və 3-cü yer uğrunda qarşılaşma baş tutmuşdur. "Qəbələ"nin 11 yaşadək futbolçulardan ibarət komandası finalda "Neftçi" ilə üzüzə gəlmişdir. Komandamız həlledici görüşdə 2:1 hesablı qələbə qazanmış, bununla da U-11 Liqasının çempionu tituluna yiyələnmişdir. "Qəbələ" qızıl medal və çempionluq kuboku ilə təltif olunmuşdur. Bu, komandamızın cari mövsüm liqalarında qazandığı 5-ci çempionluqdur. U-11-ə qədər "Qəbələ" U-16, U-15, U-13 və U-12 də qızıl medallar qazanmışdır. Xatırladaq ki, U-11 1/8 finalda "Muğan"ı 14:0 və 5:1, 1/4 finalda "Ağsu"nu 3:1 və 4:1, yarımfinalda "Sumqayıt"ı 4:1 və 4:2 hesabı ilə məğlub etmişdir.

# Əzizimiz Aydan!



**Səni 1 yaşın münasibətilə təbrik edir, xoşbəxtlik, can sağlığı arzulayırıq.**

**Böyük yaradan səni bütün arzularına qovuşdursun.**

**Nənən Təranə, atan Səxavət, anan Nərgiz.**

## Xalq təbabətindən

# Kahının faydaları

Kahı mədə üçün çox xeyirlidir. O tez həzm olunur.Yuxusuzluğun aradan qaldırılmasına kömək edir. Sarılıq xəstəliyində həm çiy, həm də pörtlədilmiş formada istifadəsi tövsiyə olunur.

Kahı uşaq orqanizminə daha çox xeyirlidir.

Pəhriz qidalanmasında, piylənmənin qarşısının alınmasında pəhriz saxlanılması və sidik-cinsiyyət orqanlarının iltihabı zamanı istifadə edilir və müsbət nəticələr verir.

Yaşlı adamlarda yuxusuzluq, hipertoniya, ateroskleroz və qalxanvari vəzi xəstəliklərinin müalicəsinə kömək edir.

Eləcə də kahı avitaminoz zamanı misilsiz xeyirli təsirə malikdir. Çünki o, tərkibindəki B qrupu, E və K vitaminlərinin miqdarına görə tərəvəzlər arasında üstünlük təşkil edir. Bu bitki həm də karo-



tin, askorbin turşusu, dəmir, kalsium, fosfor, yod, kobalt, sink və maqnezium ilə zəngindir. Kahının xırdalanmış toxumlarının sulu məhlulu körpə əmizdirən anaların südünü artırır.

Kahı şirəsinin tərkibində 30 faizədək kalium olduğundan ürək əzələlərinin fəaliyyətini yaxşılaşdırır, onun tərkibindəki fol turşusu və xlorofil eritrositlərin və hemoqlabinin yaranmasını stimullaşdırır. Kahı qanın tərkibindəki artıq xolesterinin səviyyəsini də aşağı salır.

Onun tünd rəngli üst yarpaqları xlorofil ilə daha çox zəngindir.

Yarpaqlarındakı laktusin sinir sisteminə sakitləşdirici təsir göstərir, yuxunu yaxşılaşdırır.

P vitamini isə qan damarlarının kövrəkliyinin qarşısını alır. Kahı şirəsindən alınan preparatlar ürək xəstəlikləri zamanı effektiv homeopatik vasitədir.

# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 7 noyabr 1997-ci il tarixli 19 saylı qərarı ilə Böyük Əmili kənd sakini **İsmayılov Cavid Nahid oğluna** verilmiş JN seriyalı 259 nömrəli (kod 40604028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə sakini **Qasımov İlham Zərgər oğluna** və ailə üzvlərinə verilmiş JN seriyalı 1098 A nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 19 yanvar 1998-ci il tarixli 13 saylı qərarı ilə Hacıalılı kənd sakini **Paşayev Telman Həbib oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 014 G nömrəli (kod 40604018) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 aprel 2005-ci il tarixli 2-32 saylı xüsusi qərardadı ilə Zarağan kənd sakini **Cabbarov Mənsur Mabud oğluna** verilmiş JN seriyalı 717 A nömrəli (kod 40608018) **torpağ mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon İcra Hakimiyyəti ilə Bayramkoxa kənd sakini **Mikayılov İsa Əliheydər oğlu** tərəfindən 29 may 2003-cü ildə bağlanmış **torpaq sahəsinin icarəyə verilməsi haqqında 222 nömrəli müqavilə və torpaq sahəsinin sxematik planı** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycaq Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 17 mart 2006-cı il tarixdə Qəbələ şəhər sakini **Yusifov Cəbrayıl Umar oğluna** verilmiş MH seriyalı 0006260 nömrəli (reyestr nömrəsi 406013 004037, qeydiyyat nömrəsi 190801289) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** və 14 mart 2008-ci il tarixli AA seriyalı 000748 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçn etibarsız sayılır.

---

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 13 aprel 2009-cu il tarixdə Zarağan kənd sakini **Məmmədxanov Məmmədxan Dursun oğluna** verilmiş AA seriylı 004593 nömrəli (reyestr nömrəsi 406013001826) **torpaq sahəsinin planı və ölçüsünə dair sənəd** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ şəhər sakini **Qasımov Tahir Fərrux oğlunun ümumvətəndaş pasportu, şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi** və **avtomobilinin texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Yolçuyev Xanlar Valyəz oğluna** verilmiş JN seriyalı 1816 F nömrəli (kod 40601004) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.




**QƏBƏLƏ**

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

**qəzetinə**

*2017-ci ilin ikinci yarısı üçün abunə yazılışına başlanmışdır.*

**Yarımillik abunə qiyməti 15 manatdır.**

***Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyada nəqd ödəmə yolu ilə aparılır.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56** (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.**


# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Azadə Əhmədovaya** qayınatası

**AĞABALA DAYININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin pedaqoji kollektivi iş yoldaşları **Mahirə Xurşudovaya** və **Arzu Bəkirovaya** əzizləri

**QİYAFƏT XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Rəna Qarayevaya** qardaşı

**MƏTLƏB QARAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

«Aqro-Azərinvest» MMC Qəbələ Şərab Zavodunun kollektivi iş yoldaşları **Adıgözəl Adıgözəlova** qızı

**LEYLA XANIMIN**

vaxtsız vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Mətanət Ağamirzəyevaya** və **Gülər Həmzəyevaya** əzizləri

**QİYAFƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.


**«QƏBƏLƏ» qəzetinin reklam xidməti**

**205-19-14, 205-15-56**



Redaktor Varis Yaquboy

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56. Redaktor: (024) 205-19-14. Ümumi: (024) 205-15-56. e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1700*